**Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qarşılıqlı fəaliyyətinə dair Metodik Təlimata uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsinin Apellyasiya Şurasının 2017-ci il ərzindəki fəaliyyəti barədə**

**Hesabat**

Əmlak Məsələləri Dövlət Komitəsinin Apellyasiya Şurasına 30.12.2017-cı il tarixinə **35** şikayət daxil olmuşdur. Şikayətlərdən **6-sı** Azərbaycan Respublikası Prezidenti Yanında Apellyasiya Şurasından, **29-u** isə birbaşa daxil olmuşdur. Şikayət müəlliflərindən **3-ü** hüquqi şəxs, **32-si** isə fiziki şəxs olmuşdur.

Bildiririk ki, **6** şikayət Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə”nin tələblərinə cavab verdiyindən komitənin Apellyasiya Şurasında baxılması üçün icraya götürülmüşdür. Şikayətlərdən **1-i** qismən təmin edilmişdir (qeyri-yaşayış binası üzərində mülkiyyət hüququnun qeydiyyata alınması). İcraata qəbul olunmuş **2** müraciətlə bağlı eyni zamanda məhkəmə qaydasında da şikayət verildiyindən “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 72.2-ci maddəsinə və “Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuralarının qarşılıqlı fəaliyyətinə dair Metodiki Təlimat”ın tələblərinə əsasən həmin şikayətlər üzrə başlanılmış icraata xitam verilmişdir (icraatına xitam verilmiş şikayət hesabatın cədvəl formasında 18-ci qrafada təmin edilməmiş qərarların sayına daxil edilmişdir).

**3** şikayət əsassız olduğundan təmin edilməmişdir (**2-si** qeyri-yaşayış sahəsi üzərində mülkiyyət hüququnun qeydiyyata alınması, **1-i** torpaq sahəsinə dair çıxarışda torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi).

**3** şikayət geri götürüldüyündən Apellyasiya Şurasında baxılmamışdır (reyestrdən çıxarışda məlumatların düzgün göstərilməməsi, qeyri-yaşayış sahəsinin özəlləşdirilməsi ilə bağlı qiymətləndirmənin yenidən aparılması, torpaq sahəsi üzərində mülkiyyət hüququnun qeydiyyata alınması). Qalan **26** şikayət Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamənin tələblərinə cavab vermədiyindən (Vergi ödəyicisinin uçota alınması haqqında Şəhadətnamə (VÖEN) və digər sənədlər təqdim edilməmiş, təkrar xarakterli və sahibkarlıq fəaliyyəti ilə bağlı olmamış, komitənin səlahiyyətinə aid olmamış, tabelikdəki qurum tərəfindən inzibati akt qəbul edilməmişdir və s.) Şuranın müzakirəsinə çıxarılmamışdır. Həmin şikayətlər aidiyyəti üzrə baxılaraq tədbirlərin görülməsi üçün komitənin strukturuna daxil olan qurumlara göndərilmiş və ya mahiyyəti üzrə cavablandırılaraq bu barədə müraciət müəlliflərinə məlumat verilmişdir.